BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2014*

**UOT 821(091)**

# SAHİB BİN ƏBBAD: HƏYAT VƏ YARADICILIĞININ TƏDQİQ TARİXİNƏ QISA BİR NƏZƏR

**X.S.CƏFƏRLİ**
***Bakı Dövlət Universiteti***
***nuşhaba 49@mail.ru***

*Məqalədə X əsrin görkəmli ictimai-siyasi və ədəbi xadimi olan Sahib bin Əbbadın həyat və yaradıcılığı öyrənilir. Göstərilir ki, Sahib bin Əbbadın yaradıcılığı hələ onun öz dövründə müasirləri tərəfindən öyrənilməyə başlanılmışdır. Bu proses hətta XIX əsrə qədər davam etmişdir. XX əsrdə də bu böyük şəxsiyyətin həyat və yaradıcılığına maraq azalmamış, onun haqqında ərəb, İran, türk və Avropa alimləri tərəfindən onlarla qiymətli əsər meydana gəlmişdir. Azərbaycan alimlərindən görkəmli əruzşünaslar Əkrəm Cəfər və Tərlan Quliyev də Sahib bin Əbbadın yaradıcılığın tədqiq etmişlər.*

**Açar sözlər:** Sahib Bin Əbbad, XIX əsr ərəb ədəbiyyatı, Bağdad, Misir ərəb ədəbiyyatı, Hüseyn Nəssab, Al-e-Yasin, Əkrəm Cəfər, əruz

X əsrin görkəmli ictimai-siyasi xadimi, alimi, ədibi, şairi olan Sahib bin Əbbad o şəxsiyyətlərdəndir ki, onun haqqında hələ onun öz dövründən etibarən, müasirləri tərəfindən tədqiqatlar aparılmış, ona müxtəlif əsərlər ithaf olunmuş, haqqında yüzlərlə şeir, onlarla kitab yazılmışdır. Onun haqqında kitab yazanlardan, məsələn, Əbu Həyyan ət-Touhidinin, Hüseyn bin Əli bin Babveyhin, 988-ci ildə vəfat etmiş Həsən bin Məhəmməd bin Həsən Quminin, 991-ci ildə vəfat etmiş Əbu Cəfər Məhəmməd bin Əli bin Hüseyn bin Musa bin Babüveyh Quminin, 999-cu ildə vəfat etmiş Əbul Hüseyn Əhməd bin Fars bin Zəkəriyyə bin Məhəmməd bin Həbib Razinin, 1037-ci ildə vəfat etmiş Sələbi adıyla məşhur olan Əbu Mənsur Əbdül Məlik bin Məhəmməd bin İsmayıl Nişapurinin, 1154-cü ildə anadan olub, 1245-ci ildə vəfat etmiş Əbu Talib Məhzəbəddin Məhəmməd bin Əli bin Əli bin Müfəddəl Hilli Məzidinin və başqalarının adlarını çəkmək olar (1, 25-26). Sonralar da Sahib bin Əbbad haqqında müxtəlif əsərlər yazılmış və yaxud da ayrı-ayrı mənbələrdə onun haqqında qiymətli məlumatlar verilmişdir. Sahib bin Əbbad haqqında məlumat verən

orta əsrlərdə yaşayıb-yaratmış alimlər sırasında İbnun Nəccar, İbn Nədim, Yaqut əl-Həməvi, Suyuti və başqalarının adlarını qeyd etmək olar (2, 513-514).

Sahib bin Əbbad haqqında, hətta XIX əsrdə də əsərlər yazılmışdır. Belə ki, belə əsərlərdən Əbül Qasim Kuhpayi İsfəhaninin 1843-cü ildə yazmış olduğu "əl-İrşad dər şərhe-əhvale-Sahib" əsərini və başqalarını göstərmək olar (1, 26).

Sahib bin Əbbad haqqında tədqiqatlar XX əsrdə də davam etmişdir. Bir sıra ərəb ölkələrində, xüsusilə Misir, İraq və eyni zamanda, İranda bu görkəmli şəxsiyyətin həyat və yaradıcılığı daima diqqət mərkəzində olmuş və Sahib bin Əbbad haqqında onlarla kitab işıq üzü görmüşdür. Xüsusilə, onun ayrı-ayrı əsərləri görkəmli ərəb və İran alimləri tərəfindən ayrıca olaraq nəşr edilmişdir. Sahib bin Əbbadın tədqiqatçıları sırasında Məhəmməd Həsən Al-e Yasinin, Naci Həsənin, Əli Məhfuzun və başqalarının adlarını qeyd etmək olar.

Sahib bin Əbbadın həyat və yaradıcılığının öyrənilməsində, əsərlərinin nəşr olunmasında görkəmli İraq alimi Məhəmməd Həsən Al-e Yasinin xidmətləri xüsusilə böyükdür. Belə ki, İslam tarixinin, ərəb dilinin və ədəbiyyatının görkəmli tədqiqatçısı olan Məhəmməd Həsən Ali-e Yasin müxtəlif illərdə Sahib bin Əbbadın "əl-İbanə ən-məzhəbi əhlil ədl bil hüccəc əl-Quran vəl əql", "ət-Təzkirə fil üsulil xəmsə", "Şərhu qəsidətis Sahib bin Əbbad fi üsulid din", "Ünvanül məarif və zikrül xəlaif", "əl-Mühit fil luğa", "əl-Fərq bəyanəd dad vəz za", "əl-İqna fil-əruz və təxricil qəvafi", "Kitabül kəşf ən məsavii şiril Mütənəbbi", "əl-Əmsalüs sairə min şiiril Mütənəbbi", "Kitabü divani şirih", "ər-Ruznamcə", "əl-Əyad və fəzailün novruz" əsərlərini çap etdirmiş, onlara qiymətli ön söz, qeydlər və şərhlər yazmışdır. Qeyd edək ki, bu əsərlərdən bəziləri elə Məhəmməd Həsən Al-e Yasin tərəfindən iki dəfə, bəziləri isə Məhəmməd Həsən Al-e Yasinlə bərabər digər alimlər tərəfindən də nəşr edilmişdir. Məsələn, "əl-İbanə ən-məzhəbi əhlil ədl bil hüccəc əl-Quran vəl əql" əsəri Məhəmməd Həsən Al-e Yasin tərəfindən ilk dəfə Nəcəfdə 1371-ci ildə, daha sonra Bağdadda 1383-cü ildə, "Ünvanül məarif və zikrül xəlaif" əsəri yenə onun tərəfindən Nəcəfdə 1371-ci ildə, Bağdadda 1383 və 1385-ci illərdə, "Kitabül kəşf ən məsavii şiril Mütənəbbi" əsəri Qahirədə 1349, Bağdadda isə 1385-ci illərdə nəşr edilmişdir. Eyni zamanda, "əl-İqna fil əruz və təxricil qəvafi" əsəri Məhəmməd Həsən Al-e Yasin tərəfindən 1379-cu ildə Bağdadda nəşr edildikdən sonra, 1407/1987-ci ildə Qahirədə əl-İdqavi tərəfindən, "əl-Əmsalüs sairə min şiiril Mütənəbbi" 1950-ci ildə Beyrutda Zühdi Yegen tərəfindən nəşr olunduqdan sonra, 1958, 1965-ci illərdə yenə də Məhəmməd Al-e Yasin tərəfindən Bağdadda nəşr edilmişdir. Naci Həsən də Sahib bin Əbbadın "Kitabüz Zeydiyyə" əsərini iki dəfə - bir dəfə 1977-ci ildə Bağdadda, ikinci dəfə isə 1986-ci ildə Beyrutda nəşr etdirmişdir (2, 513-514).

Sahib bin Əbbadın tədqiqatçıları və naşirləri sırasında Naci Həsənin də adını qeyd etmək lazımdır. Belə ki, o, Sahib bin Əbbadın "Kitabüz Zeydiyyə", "Nüsrətü məzahibiz Zeydiyyə" əsərlərini çap etdirmişdir (2, 513-514).

Misir ərəb alimləri  Əbdülvəhhab Əzzəm və Şövqü Dayf da Sahib bin Əbbadın bir sıra risalələrini "Rəsailüs Sahib bin Əbbad" adıyla nəşr etdirmişlər. Həmçinin, Əli Məhfuz adlı alim də Sahib bin Əbbadın "Risalə fil hidayə vəd dəlalə" əsərini Tehranda nəşr etdirmişdir (2, 513-514).

Qeyd etdiyimiz kimi, Misir, İraq və İran alimləri Sahib bin Əbbadın əsərlərini nəşr etdirdikləri kimi, eyni zamanda, onun haqqında tədqiqat əsərləri də yazmışlar. Belə alimlərdən Əbülqasim Əhməd bin Məhəmməd əl-İsfahaninin 1933-cü ildə Tehranda çap olunmuş "Risalətül irşad fi əhvalis Sahib bin Əbbad" əsərinin, Bədəvi Əhməd Təbanənin Qahirədə çap olunmuş "əs-Sahib bin Əbbad: əl-vəzir əl-ədib əl-alim" əsərinin, Əhməd Bəhmənyarın 1344-cü ildə Tehranda çap olunmuş "Sahib bin Əbbad şərhi-əhval və asar", yenə də Məhəmməd Həsən Al-e Yasinin "əs-Sahib bin Əbbad həyatühü və ədəbih" əsərinin, Kamil Məhəmməd Üveydanın "əs-Sahib bin Əbbad əl-vəzir əl-ədib" əsərinin, Xəlil Mərdəm Bəkin 1932-ci ildə Dəməşqdə çap olunmuş "əs-Sahib bin Əbbad" əsərlərinin adlarını çəkmək olar. Qeyd edək ki, yuxarıda adları çəkilən bu əsərlər bilavasitə Sahib bin Əbbadın həyat və yaradıcılığına həsr olunmuş əsərlərdir. Lakin bəzi tədqiqatçılar bəzən ədəbiyyat tarixi və bəzən  digər əsərlərində də yeri gəldikcə Sahib bin Əbbaddan bəhs etmiş, bu və ya digər mənada onun haqqında söz söyləmişlər. Belə tədqiqatçılardan  Hüseyn Nəssar və onun 1968-ci ildə Qahirədə çap etdirdiyi "əl-Mucəmul ərəbi: nəşətuhu və tətəvvüruh" əsərini, Məhəmməd Həsən Al-e Yasin və onun 1372-ci ildə Nəcəfdə çap etdirdiyi "Nəfaisül məxditad" əsərini, M.Rza əl-Hakimi və onun 1983-cü ildə Beyrutda çap etdirdiyi "Tarixül üləma əbrəil üsuril müxtəlifə" əsərini, Əbdül Hüseyin Əhməd əl-Əmini və onun 1366-cı ildə Tehranda çap etdirdiyi "əl-Ğadir fil kitab vəs-sünnə vəl ədəb" əsərini və onlarla başqalarını misal göstərmək olar (2, 513-514).

Sahib bin Əbbadın yaradıcılığı ilə çox sayda olmasa da, hər halda, Avropa alimləri də maraqlanmışlar. Belə ki, bizə belə əsərlərdən yalnız biri Ch. Pellatın 1990-cı ildə Kembricdə çap etdirdiyi "Abbasid Belles-lettres" əsərində "Al-Sahib İbn Abbad" məqaləsi məlumdur (2, 515).

Maraqlıdır ki, Azərbaycan alimləri də Sahib bin Əbbadın yaradıcılığı ilə məşğul olmuş, xüsusilə onun əruz və qafiyənin nəzəri əsaslarından bəhs edən "əl-İqna fil əruz və təxricil qəvafi" əsərini tədqiqat obyektinə çevirmişlər. Ümumiyyətlə, bu əsər iki dəfə nəşr olunmasına, yəni ilk dəfə Məhəmməd Həsən Al-e Yasin tərəfindən 1960-cı ildə Bağdadda və 1987-ci ildə əl-İdqavi tərəfindən Qahirədə çap olunmasına baxmayaraq, demək olar ki, ayrıca tədqiqat mövzusu olmamışdır. Lakin XX əsrin görkəmli əruzşünası, altı xalqın - ərəb, fars, türk, özbək, tacik və Azərbaycan xalqlarının əruzlarını müqayisəli şəkildə tədqiqata cəlb edib, 1977-ci ildə "Əruzun nəzəri əsasları və Azərbaycan əruzu" adlı fundamental monoqrafiyasını yazaraq çap etdirən, filologiya elmləri doktoru Əkrəm Cəfər əsərini yazarkən, ərəb əruzuna aid istifadə etdiyi mənbələr sırasında Sahib bin Əbbadın Məhəmməd Həsən Al-e Yasin tərəfindən 1960-cı ildə Bağdadda çap olunmuş "əl-İiqna fil əruz və təxricil qəvafi"

əsərindən də istifadə etmişdir (3). Qeyd edək ki, Əkrəm Cəfər ərəb əruzuna aid mənbələrdən istifadə edərkən əsasən, Sahib bin Əbbadın fikirlərinə söykənmişdir. Ərəb əruzuna aid mənbələrdən isə onun əlində demək olar ki, yalnız İbn Hacibin və əl-Əndəlüsinin ərəb əruzuna aid əsərlərinin əlyazmaları və Siracəddin Səkkakinin 1317/1899-cu ildə Misirdə çap olunmuş "Miftahül ülum" əsəri olmuşdur. Doğrudur, Əkrəm Cəfər bu mənbələrlə yanaşı, eyni zamanda, fars əruz elminin görkəmli nümayəndələri olan Şəmsəddin Məhəmməd bin Qeys ər-Razinin və Nəsirəddin Tusinin də ərəb əruzuna aid olan fikirlərinə söykənmişdir. Lakin bu qeyd olunan əsərlər içində ərəb əruzu haqqında ən qədim və ən mötəbər mənbə Sahib bin Əbbadın "əl-İqna" əsəri olduğu üçün, Əkrəm Cəfərin əsərinin ərəb əruzundan bəhs edən hissəsinin əsas mənbəsini Sahib bin Əbbadın əsəri təşkil etdiyi açıq-aşkar duyulur.

Əkrəm Cəfər öz əsərini yazarkən, qarşısına, əsasən, əruzun nəzəri əsasları haqqında məlumat vermək məqsədini qoyduğuna görə, əruz elminin inkişaf tarixinə demək olar ki, ötəri bir nəzər salmışdır. Lakin o, əruzun tarixi haqqında ötəri fikir söyləsə də, hər halda onun bu fikirlərində yenə də ilk yeri Sahib bin Əbbad tutur. Belə ki, Əkrəm Cəfər Xəlil ibn Əhməddən sonra əruzşünaslıq tarixinə nəzər salarkən yazır: "Tarix boyu gəlib-getmiş bir sıra məşhur əruzçular onu (Xəlil ibn Əhməd nəzərdə tutulur – X.C.) təsdiq etmiş və onun yolu ilə getmişlər. Böyük əruzçular – "Əl-İqna" müəllifi Sahib bin Əbbad (937-995), "Əruzi-Əndəlüsi" adlı məşhur mənzum əruz kitabının müəllifi Əbil-Çiyş Ənsari (vəf.1229), "Miftahül ülum"un sahibi Siracəddin Səkkaki (1160-1229), "Əruzi İbn Hacib"in sahibi Əbu Ömər İbn Hacib (1144-1248), "Miyarül -əşar" müəllifi Nəsir Tusi (1201-1274), "Əl-Möcəm fi məayir əşaril Əcəm" müəllifi Ş.M. Qeys Razi (XIII əsrin I yarısı), "Risaleyi -əruz dər sənaəte şeir və qafiyə" sahibi Əbdürrəhman Cami (1414-1492), "Mizanül övzan" sahibi Əlişir Nəvai (1441-1501), "Mövzuatül-ülum" sahibi Əhməd Daşköprüzadə (1495-1560), Seyfi Nişaburi, Vəhid Təbrizi, Qiyasəddin Rampuri, Əbdülnafe, Əli Cəmaləddin, Əhməd Aymutlu və başqaları Xəlil ibn Əhmədin qoyduğu prinsipləri qəbul etmişlər, ona əsaslanaraq öz traktatlarını yazmışlar" (3, 42-43).

Qeyd etdiyimiz kimi, Əkrəm Cəfər öz əsərində ərəb əruzunun nəzəri əsaslarından danışarkən daha çox Sahib bin Əbbadın fikirlərinə əsaslanmış və onun fikrini ərəb əruzu haqqında olan qəti və elmi fikir kimi qəbul etmişdir. Bunu Əkrəm Cəfərin ən azı ərəb əruzunun ayrı-ayrı bəhrlərindən danışarkən görmək mümkündür. Belə ki, məsələn o, bəsit bəhri haqqında danışarkən yazır: "Bəsit bəhri haqqında bir cəhəti də qeyd etməliyik. Ənənəvi əruzun bəsit bəhri haqqındakı prinsiplərinə baxılarsa, istər Nəsir Tusinin, istərsə Qeys Razinin göstərdikləri vəznlər tamam deyildir. Xəlil ibn Əhmədə əsaslanan mənbələrə görə, bəsit bəhrində xəbn, təyy, xəbl, qət, müzal və xəl zihafları olmalıdır. Nəsirəddin Tusinin və Qeys Razinin bəsit bəhri vəznlərində xəl ilə təyy yoxdur, yəni bunların gətirdikləri qəliblərin təfilələri arasında fə'Ulün (müxəllə) və müftə'ilün (mətviyy) yoxdur. Sahib bin Əbbadda isə bunlar var" (3, 180). Digər bir yerdə isə Əkrəm Cəfər rəcəz bəhrindən danışarkən yazır: "Bizim yu-

xarıda ərəb rəcəzinə aid gətirdiyimiz beş zihafsız növ X əsrdə yaşamış alim Sahib bin Əbbadın "əl-İqna" əsərinə əsasən idi" (3, 222.). Beləliklə, gördüyümüz kimi, Əkrəm Cəfər öz yaradıcılığında Sahib bin Əbbaddın fikirlərinə daha çox əsaslanmışdır və onun Sahib bin Əbbadla bağlı fikirləinə daha bir sıra nümunələr gətirmək olar.

Azərbaycan alimlərindən Əkrəm Cəfərin tələbəsi görkəmli əruzşünas, filologiya elmləri doktoru Tərlan Quliyev də istər 1998-ci ildə çap etdirdiyi "Əruz və qafiyəşünaslıq tarixi (VIII-XVI əslər)" adlı monoqrafiyasında, istər 2013-cü ildə dərs vəsaiti kimi çap etdirdiyi "Əruz vəq afiyəşünaslıq tarixi" adlı dərsliyində və istərsə də ərəb əruz və qafiyəsi haqqında yazdığı məqalələrində Sahib bin Əbbadın yaradıcılığına müraciət etmişdir (4; 5). Belə ki, Tərlan Quliyev Əkrəm Cəfərdən fərqli olaraq, əruzun başqa bir qolunu, yəni əruz və qafiyəşünaslıq tarixini tədqiq etdiyi üçün Sahib bin Əbbadın yaradıcılığına daha geniş şəkildə müraciət etmiş, onun elmi-nəzəri fikirlərindən bərhələnməklə bərabər, əruzşünaslıq tarixində Sahib bin Əbbadın daha çox yerini, mövqeyini təyin etməyə çalışmışdır. Bu mənada, Tərlan Quliyev bütövlükdə əruz və qafiyəşünaslıq tarixini izləmiş, xüsusilə, əruz və qafiyəşünaslıq elminin Xəlil ibn Əhməddən, yəni VIII əsrdən başlamış X əsrə qədər – Sahib bin Əbbadın yaşayıb-yaratdığı dövrə qədər yaşayıb-yaratmış əl-Əxfəş, Mazini, Cərmi, Sicistani, İbn Keysan, İbn Quteybə, Zəccac, Naşii, İbn Əbd Rəbbih, İbn əs-Sərrac, əl-Cövhəri və bir sıra başqa əruz və qafiyəşünasların həyat və yaradıcılıqlarını araşdırdıqdan sonra, Sahib bin Əbbada qiymət vermişdir. Belə ki, Tərlan Quliyev Sahib bin Əbbaddan danışarkən yazır: "Sahib Əbül Qasim İsmayıl bin Əbbad (937-995) dövrünün görkəmli alimi və dövlət xadimi olmuşdur. O, əruzu hicri 360-cı ildə vəfat etmiş İbnul Əmid ləqəbi ilə məşhur olan Əbülfəz Mühəmməd bin əl-Hüseyn və hicri 368-ci ildə vəfat etmiş Əbu Səid əs-Sirafi kimi görkəmli alimlərdən öyrənmişdir. Sahib bin Əbbadın əruz və qafiyə haqqındakı bilikləri o qədər şöhrət tapmışdır ki, hətta ən qəddar düşmənlərindən olan Əbu Həyyan ət-Tauhidini də dilə gətirmiş və o demişdir: "Sahib bin Əbbad əruz və qafiyəni ən yaxşı bilənlərdəndir". Sahib bin Əbbad əruz və qafiyəşünaslıq tarixində "əl-İqna fil əruz vəl təxricil qəvafi" adlı əsəri ilə məşhurdur. O, bu əsərində demək olar ki, Xəlilin yaratdığı prinsiplərdən kənara çıxmamış, əruz və qafiyə haqqında yığcam, lakin ətraflı şəkildə məlumat vermişdir" (4, 122). Təbii ki, filologiya elmləri doktoru Tərlan Quliyevin yuxarıda adları çəkilən əsərlərində Sahib bin Əbbadla əlaqədar olaraq, əruz və qafiyənin nəzəri əsasları ilə bağlı daha bir sıra məsələlər haqqında fikir yürütmək olar. Lakin bizə elə gəlir ki, istər Əkrəm Cəfər və istərsə də, Tərlan Quliyevin yaradıcılıqlarında Sahib bin Əbbadla əlaqədar yuxarıda gətirdiyimiz sitatlar da onların öz əsərlərini yazarkən Sahib bin Əbbad və onun əsəri ilə nə qədər yaxından maraqlandıqlarını bir daha sübut edir. Bu mənada, Sahib bin Əbbadın "əl-İqna" əsərinin ilk dəfə 1960-cı ildə Bağdadda çap olunmasına baxmayaraq, onun haqqında geniş tədqiqat aparan alimlər sırasında Azərbaycan alimlərinin adlarını da iftixarla çəkmək olar.

**ƏDƏBİYYAT**

1. Dehxuda. Lüğətnamə. S-Saleh ibn Nəsr. Tehran, 1333? Xurşidi, Çapxaneyi Məclis, 100 s., s.17.
2. İlyas Çələbi . Sahib b.Abbad. Türkiyə Dəyanət Vakfı İslam ansiklopedisi, cild 35, İstanbul: 2008, 587 s., s. 512.
3. Əkrəm Cəfər. Əruzun nəzəri əsasları və Azərbaycan əruzu. Bakı: Elm, 1977, 416 s.
4. Tərlan Quliyev. Əruz və qafiyəşünaslıq tarixi (VIII-XVI əsrlər). Bakı: Əbilov, Zeynalov və oğulları, 1998, 180 s.
5. Tərlan Quliyev. Əruz və qafiyəşünaslıq tarixi. Bakı: Elm və təhsil, 2013, 292 s.

## ИСТОРИЯ ИССЛЕДОВАНИЯ ЖИЗНИ И ТВОРЧЕСТВА САХИБ БИН АББАДА

**Х.С.ДЖАФАРЛИ**

**РЕЗЮМЕ**

В статье изучается жизнь и творчество выдающегося общественно-политического и художественного деятеля X века Сахиб бин Аббада. Показано, что еще в свое время творчество Сахиб бин Аббада начало изучатся его современниками. Этот процесс продолжался до IX века. Даже в XX веке был интерес к жизни и творчеству этой большой личности, про него были написаны десятки ценных произведений со стороны арабских, иранских, турецких и европейских ученых. Из азербайджанских ученых выдающиеся исследователи аруза Акрам Сафар и Тарлан Гулиев занимались исследованием творчества Сахиб бин Аббада.

**Ключевые слова:** Сахиб Бин Аббад, арабская литература XIX века, Багдад, Египтская арабская литература, Гусейн Нассаб, Ал-е-Ясин, Акрам Джаффар, аруз.

## SAHIB IBN ABBAD: A BRIEF GLANCE TO THE HISTORY OF HIS LIFE AND RESEARCH ACTIVITIES

**Kh.S.JAFARLI**

**SUMMARY**

The eminent social-political and literary figure of the X century – Sahib ibn Abbad's life and activities are researched in this article. İt is shown that, Abbad's activities started to be researched by his contemporaries during the period he lived. This process lasted till the XIX century. In the XX century, there was still a represented interest for Sahib ibn Abbad's life and activities, and numerous works were devoted to him by Arabian, Iranian, Turkish and European researchers. Akram Jafar and Tarlan Guliyev, Azerbaijani notable researchers of Aruz metre, also researched Sahib ibn Abbad's activities.

**Key words:** Sahib Bin Abbad, XIX century's literature, Baghdad, Egyptian Arabic literature, Hüseyn Nassar, Al-e-Yasin, Akram Jafar, aruz.